

*Təsadüf elə gətirdi ki, onunla şöbə müdiri tək fəaliyyətə başlamasının 25 illiyinin tamamında görüşdük. Qeyri-ixtiyari ürəyimizdən fərəh qarışıq bir hiss keçdi: "Təcrübə öz sözünü deyir."*

*Müsahibimiz Ucar Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Qiyas Rəhimovdur. Qiyas müəllimi yaxından tanıyanlar onun işgüzarlığına, prinsipiallığına, savadına yaxşı bələddirlər. Bütün bu keyfiyyətlər ona nüfuz qazandırıb. İstər rayonda, istərsə də nazirliyimizdə ona xüsusi hörmətlə yanaşılması da dediklərimizin təzahürüdür.*

# Mədəniyyətimizin inkişafı və təbliği

Qiyas müəllimlə iş otağında əyləşib kollektivin fəaliyyəti barədə ətraflı söhbət etdikdən sonra ərazini gəzirik. Səliqə-səhman göz oxşayır. Hər kəs işinin başındadır. Getdiyimiz yerlərdə bizi mehribanlıqla qarşılayırlar.

İstər-istəməz gördüklərimizi Q.Rəhimovun bir az əvvəl söylədiyi faktlarla tutuşdururuq. Fərəhli haldır ki, hər şey üst-üstə düşür. Bu haqda sizə müfəssəl məlumat verəcəyik. Hələlik isə həmsöhbətimizin tərcümeyi-halından qısa qeydləri nəzərinizə çatdırırıq.

Qiyas Əvəz oğlu Rəhimov 1950-ci ildə anadan olub. Gəncə Dövlət Pedaqoji Universitetinin məzunudur. Ailəlidir. İki qızı və bir oğlu var. 1982-ci il iyunun 1-dən şöbə müdiridir.

Q.Rəhimovun dediklərindən:

- Biz, Azərbaycan mədəniyyətinin inkişafına yaxından köməklik göstərmək məqsədilə mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün bütün imkanlarımızdan istifadə edirik. Məlumat üçün bildirirəm ki, şöbəmizin tabeliyində olan müəssisələrdə 296 nəfər mədəniyyət işçisi çalışır. Onların köməyi ilə rayonda mədəni-kütləvi tədbirlər həyata keçirilir. Bu tədbirlərin səviyyəsini yüksəltmək üçün bütün bacarıq və imkanlarımızı səfərbər edirik.

Hazırda rayonda 18 mədəniyyət evi, 8 klub, 47 kitabxana, 2 muzey, 1 incəsənət məktəbi fəaliyyət göstərir. Kitabxanalarımızın fonunda 321869 nüsxə kitab saxlanılır. Oxucularımızın sayı 29163 nəfərə bərabərdir. Ötən illərə nisbətən həm daxil olan ədəbiyyatın, həm də oxucuların sayı artmışdır.

Rayon kitabxanalarımızın latın qrafikalı ədəbiyyatla zənginləşməsində möhtərəm prezidentimiz tərəfindən hədiyyə edilmiş kitabların müstəsna əhəmiyyəti vardır. Fürsətdən istifadə edib jurnalınız vasitəsilə bütün rayon zəhmətkeşləri, mədəniyyət işçiləri adından cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildirirəm. Sevindirici haldır ki, yalnız 2005-ci ildə kitabxanamız bu qəbildən 21308 nüsxə ədəbiyyat almışdır. 2006-cı ildə bu göstərici 1867, 2007-ci ilin I rübündə isə 3978 nüsxəyə bərabər olmuşdur.

Hazırda cənab prezidentin sərəncamı əsasında rayonun kitabxanalarına 27153 nüsxə kitab verilmişdir. Bundan başqa şöbəmiz şəxsi vəsait hesabına 32000 nüsxə latın qrafikalı ədəbiyyat almışdır. İndi kitabxanamızda 60 min nüsxədən yuxarı latın qrafikalı ədəbiyyat var.

Kitabxanalarımızın xəttilə yeni ədəbiyyatların tətbiqi, təqdimatı, kitab sərgiləri, oxucu konfranslarının keçirilməsində də müəyyən işlər görülmüşdür.

Rayonda fəaliyyət göstərən mədəniyyət evi və klub müəssisələri 20 yanvar faciəsi, 2 fevral - Gənclər günü, 26 fevral - Xocalı soyqırımı, 8 mart - Beynəlxalq Qadınlar günü, Novruz bayramı, 31 mart - Soyqırım günü, 9 may - Qələbə günü, 10 may - Ulu öndərimizin anadan olduğu gün, 28 May - Respublika günü, 15 iyun - Milli qurtuluş günü, 16 iyun - Silahlı qüvvələr günü, 18 oktyabr - Dövlət müstəqilliyi günü, 12 noyabr - Konstitusiya günü, 17 noyabr - Milli dirçəliş günü, 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü və s. tarixi günləri və bayramları hər il bir qayda olaraq yüksək səviyyədə qeyd edir.

2007-ci il yanvarın 1-dən ulu öndərimizin adını daşıyan "Heydər Əliyev" muzeyi fəaliyyətə başlamışdır. Burada 156 eksponat nümayiş etdirilir. Muzeydə ümummilli liderimizin həyat və fəaliyyətini işıqlandıran kifayət qədər material toplanmışdır.

Tarix-diyarşünaslıq muzeyimizdə 2386 ədəd eksponat saxlanılır. Muzey Ucarın tarixini, adət-ənənələrini əks etdirən materiallarla zəngindir. 2 mərtəbəli binada yerləşir. Müasir standartlara cavab verir. Şöbə tərəfindən lazımi avadanlıqlarla təmin olunub. Maddi-texniki bazası yüksək səviyyədədir.

Şöbəmiz 2002-ci ildən sonra ulu öndərimizin fərmanı əsasında rayonun 42 müəssisəsini öz balansına götürmüş və hər il onlardan müəyyən hissəsini əsaslı şəkildə təmir edir və zəhmətkeşlərin xidmət və istifadəsinə verir.

2005-ci ildən rayonun Qazqullax, Ramal, Qəziyən, Təzə Şilyan kəndində apardığımız təmir işləri bu qəbildəndir.

2006-cı ildə isə rayonun ən böyük mədəniyyət saraylarından biri - 300 yerlik Güləbənd kənd mədəniyyət evində təmir işləri aparıb zəhmətkeşlərin ixtiyarına vermişik. Hazırda rayonun Qarabörk kəndində əsaslı təmir işləri aparılır. Rayonun Qarabörk və Boyat kənd kitabxanalarında yüksək səviyyədə iş gedir.

2007-ci ildə keçən ilə nisbətən vəsaitimiz çoxdur. Bu, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri hörmətli Əbülfəs Qarayev tərəfindən Şamaxı rayonunda keçirdiyi kollegiyada geniş şəkildə bizim diqqətimizə çatdırılmışdır. Biz cənab nazirin etimadına, mədəniyyətə göstərdiyi qayğı və diqqətə cavab olaraq bütün səy və bacarığımızı səfərbər edəcəyik. Mədəniyyətimizin təbliği və inkişafı, istedadların aşkara çıxarılması, mədəni xidmətin keyfiyyətinin yüksəldilməsi və digər vacib məsələləri fəaliyyətimizin əsas qayəsi hesab edəcəyik.

**Tural**